AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

İRADƏ ZİYADXAN QIZI BAYRAMOVA

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATI SİSTEMİ: MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ (2000-2012-CI ILLƏR) (GƏNCƏ-QAZAX, QUBA-XAÇMAZ VƏ LƏNKƏRAN IQTISADI REGIONLARININ MATERIALLARI ƏSASINDA) MÖVZUSUNDA

**3356.01 Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə**

**tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2015**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin Biblioqrafiyaşünaslıq kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Xəlil İsmayıl oğlu İsmayılov**
Əməkdar mədəniyyət işçisi, tarix üzrə elmlər doktoru, professor

**Elmi məsləhətçi:** **Nadir İslam oğlu İsmayılov**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:** **İbrahim Xudaverdi oğlu Zeynalov**
tarix üzrə elmlər doktoru, professor

**Knyaz İlyas oğlu Aslan**
pedaqogika üzrə fəlsəfə doktoru **dosent**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Dissertasiya işinin müdafiəsi 13 mart 2015-ci il tarixində saat 10.00-da Bakı Dövlət Universitetinin nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan: AZ 1148. Bakı şəhəri, Z.Xəlilov küçəsi-23,** 2 saylı tədris korpusu, 4-cü mərtəbə, aud. № 405.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat 11 fevral 2015-ci ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının Elmi katibi:** **dosent E.Y.Əhmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə bəşəriyyətin qarşısında cəmiyyətin informasiyalaşdırılması kimi bir probleм durmaqdadır. Elmi-texniki tərəqqinin yeni nailiyyətlərinin praktikada tətbiq olunduğu müasir dövrdə informasiyanın insanın və cəmiyyətin, dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına təsiri gün-gündən artır. İnformasiya – bütün dövrlərdə ictimai münasibətlərin formalaşmasında mühüm rol oynamışdır və bu gün də oynamaqdadır. İnformasiyanın yayılmasında və ötürülməsində başqa kommunikasiya vasitələri kimi kitabxanaların da mühüm rolu vardır. Respublikamızda kitabxana-informasiya resursları zəngin tarixi ənənələrə malikdir və bu ehtiyat cəmiyyətin informasiya təminatında mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev regionlar arasında yaranmış fərqlərin aradan qaldırılması ilə əlaqədar demişdir: "Azərbaycanın iqtisadi regionlarının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşmışdır. Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyildir. Azərbaycanın hər bir regionu inkişaf etməlidir".[1]

Görkəmli kitabxanaşünas-alim, professor A.A.Xələfov yazır: "Bu gün müasir dünya böyük bir inqilabi prosesi yaşamaqdadır. Bu inqilab cəmiyyətin inkişafına böyük təkan verən, onu sürətləndirən, insanların həyat şəraitini yaxşılaşdıran, intellektual səviyyəsini yüksəldən, peşə bacarığının artmasına, işinə və istirahətinə əsaslı kömək göstərə bilən informasiya inqilabıdır. Bu inqilabın müvəffəqiyyətlə həyata keçirilməsinin əsas vasitələrindən biri kitabxanalardır. Məhz buna görədir ki, müasir şəraitdə dövlətin kitabxana işi sahəsində siyasətinin hazırlanmasına böyük ehtiyac duyulmaqdadır."[2].

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər sırasında kitabxana-biblioqrafiya, informasiya işinin təşkili, idarə edilməsi, oxuculara informasiya xidmətində ənənəvi iş üsulları ilə yanaşı, müasir texnologiyaların tətbiqinə başlanılması dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir[3].

---

[1] Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. B.: Elm, 2007, s.11-12.

[2] Xələfov A.A.Kitabxanaşünaslığa giriş: Dərslik. III hissədə. III hissə. B., 2003, s.249-250.

[3] İsmayılov X.İ., İsmayılov N.İ. Azərbaycan Respublikası regionlarının soaial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi.Bur.7. B.: Mütərcim, 2007, s. 318.



Müasir dövrdə kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi iştirak etməklə, ən çox istifadə olunan müəssisəyə çevrilmişdir. Ümummilli lider H.Əliyev kitabxanaların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"[1].

Müstəqillik illərində kitabxana-informasiya sahəsinin hüquqi əsasları formalaşmış, müvafiq sahə üzrə Dövlət Proqramları qəbul edilmişdir. Bu dissertasiya işinin qarşısında duran əsas məqsəd də Azərbaycan Respublikasının regionlarının kitabxana-biblioqrafik informasiya təminatı sisteminin müasir vəziyyətinin araşdırılmasıdır.

**Tədqiqatın aktuallığını şərtləndirən əsas amillər aşağıdakılardır:**

1.Ölkənin müxtəlif regionlarının kitabxana-informasiya infrastrukturunun tarazlı inkişaf proqramının hazırlanması və həyata keçirilməsi zərurəti;

2.Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində regional xüsusiyyətlərin tədqiq edilib, nəticələrin ümumiləşdirilməsi;

3.Pegional kitabxanaşünaslığın nəzəri və metodoloji əsaslarının işlənib hazırlanmasının vacibliyi;

4.Regionlarda kitabxana-informasiya resurslarının formalaşmasına təsir edən amillərin tədqiq edilməsi zərurəti;

5.Hər bir regionun ölkənin kitabxana-informasiya infrastrukturuna verdiyi tövhələri öyrənib ümumiləşdirmək əsasında müvafiq sahə üzrə regional layihənin işlənib hazırlanması.

**Problemin öyrənilmə səviyyəsi.** Problemin mənbəşünaslığının tədqiqi göstərir ki, mövzunun ayrı-ayrı aspektləri görkəmli alim və tədqiqatçıların sanballı elmi əsərlərində qismən araşdırılmışdır.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfovun zəngin elmi yaradıcılığında[2] professor X.İsmayılovun "Azərbaycan

---

[1] Əliyev H.Ə.Müstəqillik yollarında.-Bakı,1997. III cild, 510 s.

[2] Xələfov A.A.Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə. B., 2004, 326 s.; Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. B., 2007, 552 s.; H.Əliyev və Azərbaycanda kitabxana işi. B.: Azərnəşr, 2006, 312 s.; Kitabxanaşünaslığa giriş: Dərslik III hissədə. I və II hissə.B., 2001, 398 s.; Kitabxanaşünaslığa giriş: Dərslik. III hissədə. III hissə. B., 2003, 313 s. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika, 2002, 17 aprel.

Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi" adlı monoqrafiyasında və bir sıra elmi məqalələrində[1], professor Z.Əliyevin bir sıra elmi əsərlərində, professor, İ.X.Zeynalovun əsərlərində[2], dos.N.İ.İsmayılovun elmi yaradıcılığında[3] bu problemin ayrı-ayrı aspektləri öz əksini tapmışdır.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasinin Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxana-informasiya təminatı sistemi təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasının müvafiq regionlarında kitabxana-informasiya ehtiyatlarının yerləşməsi, onun quruluşu, istifadəsi, kadr təminatının müasir vəziyyətinin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** Azərbaycan Respublikasının Konstitusiyası, informasiya texnologiyaları və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, sahə üzrə qəbul edilmiş dövlət qanunları, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparılmış tədqiqatlar, kitabxanaşünas və biblioqrafiyaşünas alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yazılmasında əsas məqsəd müstəqillik illərində ölkənin ən iri regionlarından olan Gəncə-Qazax, Quba-Xacmaz və Lənkəran iqtisadi rayonlarının kitabxana infrastrukturunun quruluşunu təhlil etmək, kitabxana-informa-

[1] İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya.B., 2000, 440 s.; Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti.B., 2005, 199 s. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi.Bur.7. B.: Mütərcim, 2007, s.318-320.

[2] Zeynalov İ.X. Azərbaycanınsosial-iqtisadi inkişafı-XX əsrin ikinci yarısında: Dərs vəsaiti. Bakı, 2004; Azərbaycanın sosial-iqtisadi inkişafında dövlət proqramı. BDU-nun xəbərləri; Humanitar elmlər seriyası. 2006, №1, s.68-76

[3] İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi / Elmi red. Z.Əliyev. B.: Mütərcim, 2003,111 s.; Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal. B., 2010, №1, s.67-78. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri //Kitabxanaşünaslıq və biblioqrafiya. 1999, №1, s.94-100.



siya resurslarının yerləşməsi, mövcud resursların quruluş təhlili, regional kitabxana-informasiya infrastrukturunun modernləşdirilməsi məsələlərinin elmi şərhi, onun tərkibi, istifadə məsələləri, kadr təminatının səviyyəsi, onun müxtəlif əlamətlər üzrə təsnifatı, bütövlükdə regionların kitabxana-informasiya infrastrukturunun təkmilləşdirilməsi məsələləridir.

Tədqiqatın məqsədi aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsini zərurət kimi qarşıya qoymuşdur:

1. Azərbaycan Respublikasının Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının sosial-iqtisadi və mədəni inkişafının səciyyəvi xüsusiyyətlərinin araşdırılması;

2. Müvafiq iqtisadi rayonların kitabxana infrastrukturunun quruluş təhlilinin verilməsi;

3.Tədqiq olunan regionlarda kitabxana-informasiya və biblioqrafik resursların yerləşməsi, onun tərkibi, istifadə məsələlərinin təhlilinin verilməsi;

4.Regionlarda informasiya ehtiyatlarının inkişaf istiqamətlərinin və ondan səmərəli istifadənin yollarının müəyyənləşdirilməsi;

5.Regional kitabxana-informasiya infrastrukturunun modernləşdirilməsi məsələlərinin elmi şərhi.

6. Kadr təminatının səviyyəsi, onun müxtəlif əlamətlər üzrə təsnifatı.

7.Bütövlükdə regionların kitabxana-informasiya infrastrukturunun təkmilləşdirilməsi məqsədilə təkliflərin və tövsiyələrin verilməsi.

**Tədqiqatın metodları.** Dissertasiya işinin elmi dövriyyəyə gətirilməsində kompleks metodlardan istifadə edilmişdir. Sahə üzrə sənədlər təhlil edilmiş, bu zaman sistemli yanaşma metodu əsas götürülmüşdür. Tədqiqat zamanı araşdırılan problemlərə dair ədəbiyyatın nəzəri təhlilinə, həmçinin uzunmüddətli müşahidələrin nəticələrinə diqqət yetirilmişdir. Bununla yanaşı, tədqiqat aparılan regionların kitabxanalarının iş təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, biblioqrafik informasiya tələbatçıları ilə söhbətlərin, müsahibələrin keçirilməsi metodlarına da müraciət olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi aşağıdakı amillərlə səciyyələnir:

- Dissertasiya işi Azərbaycan Respublikasının Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxana biblioqrafiya resurslarını arxiv sənədləri, faktiki və statistik materialların elmi döv-

riyyəyə daxil edilməsi əsasında araşdıran regional kitabxanaşünaslıq sahəsində ilk elmi tədqiqat əsəridir.

- Dissertasiya işində ilk dəfə olaraq müstəqillik illərində Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxana-biblioqrafiya sisteminin quruluşu təhlil edilmişdir.

- Dissertasiya işində ilk dəfə olaraq Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxana-biblioqrafiya sisteminin kadr təminatı araşdırılmış və öyrənilmişdir.

- Elmi-tədqiqat işində müvafiq regionların kitabxana-biblioqrafiya ehtiyatları müqayisəli təhlil olunmuş və kitabxana-biblioqrafik xidmətdə üstün və fərqli cəhətlər müəyyənləşdirilmişdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işinin nəticələrindən Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya ehtiyatlarından səmərəli istifadənin təşkilində, ali kitabxanaçılıq-informasiya təhsilinin bakalavr pilləsinin əyani və qiyabi şöbələrində tədris olunan "Regionların kitabxana-informasiya təminatı sistemi" adlı fənnin tədrisində istifadə oluna bilər.

Tədqiqatla bağlı müəllifin bir proqramı, 17 məqaləsi, o cümlədən ölkə xaricində 4 məqaləsi və 5 tezisi dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, 3 fəsil, 8 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyatın biblioqrafik siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"**ində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, tədqiqatın aktuallığını şərtləndirən əsas amillər, tədqiqatın məqsədi, vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi, aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli **"Regionların kitabxana-informasiya infrastrukturunun müasir vəziyyəti" adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Fəslin "Kitabxanaların regional yerləşməsinin nəzəri və təcrübi məsələləri"** adlanan birinci paraqrafında qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixində imzaladığı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nda regionların sosial-iqtisadi inkişafı ilə paralel olaraq, regional kitabxanaların da inkişaf perspektivləri öz əksini tapmışdı.



Respublikamızdakı kitabxanaların 14,9 %-i Gəncə-Qazax, 11,2%-i Lənkəran, 8,2 %-i Quba-Xaçmaz, iqtisadi rayonlarının payına düşür[1].

Regional kitabxana həmin bölgədə yaranmış və regionun mədəni və elmi ənənələrini mühafizə edən müəssisədir. Regional kitabxananın əsas vəzifəsi region haqqında və eyni zamanda regionda meydana gələn informasiya mənbələrini toplamaq, onları mühafizə etməkdən ibarətdir.[2] Regional kitabxanaşünaslığın obyekti kitabxana işinin ərazi təşkili, predmeti isə regionda kitabxana işinin təşkilinin qanunauyğunluqlarını, elmi əsaslarını, prinsiplərini müəyyən etməkdən ibarətdir[3].

Tədqiqat nəticəsində məlum olmuşdur ki, Gəncə-Qazax iqtisadi regionunda 1265 kitabxana, Lənkəran iqtisadi regionunda 994 kitabxana, Quba-Xaçmaz iqtisadi regionunda 698 kitabxana yerləşir[4].

Azərbaycan tarixən kitabxanaların zənginliyi ilə seçilən regionlardan biridir. Əgər dünya əhalisinə yarım milyon kitabxana xidmət göstərirsə, Azərbaycan Respublikasında 12000 kitabxana-informasiya müəssisəsi fəaliyyət göstərir. Bu da dünya kitabxana resurslarının 2,4%-ni təşkil edir. Azərbaycan Respublikasının kitabxanalarının informasiya resursları hazırda 111 milyona qədər çap vahidi ilə ölçülür[5].

Kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsində müxtəlif amillər rol oynayır. Amil dedikdə, hər hansı bir prosesin və ya hadisənin hərəkətverici qüvvəsi, onun ayrı-ayrı xüsusiyyətlərini və ya xarakterini müəyyən edən səbəblər nəzərdə tutulur. Adətən kitabxanaşünaslıqda amillərin tərkibinə aşağıdakıları aid edirlər: 1) iqtisadi-coğrafi xüsusiyyətləri; 2) demoqrafik amilləri; 3) əhalinin yerləşdirmə sistemi; 4) nəqliyyat strukturu; 5) təbii şərait və s.[6]

Kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsinə təsir edən

---

[1] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. B., 2009, s.23-27.

[2] Библиотечная энциклопедия. М., 2007, с.850.

[3] Yenə orada, s.850-851.

[4] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. B., 2009, s.23-27

[5] İsmayılov N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal. B., 2010, №1, s.67

[6] Yenə orada, s.68.

əsas amil isə inzibati-ərazi amili sayılır. Belə ki, bu amil bütün kitabxanaları əhatə edir.

Məlumdur ki, kitabxana şəbəkəsinin yerləşdirilməsi əhalinin sayı və sıxlığı, yaş həddi, ailə vəziyyəti, təhsili, eləcə də sosial-peşəkar qruplara mənsubluğu kimi göstəricilər sistemi ilə sıx bağlıdır. Bu göstəricilərin kitabxana işinin təşkili xüsusiyyətləriylə qarşılıqlı əlaqədə öyrənilməsi, kitabxananın inkişafının xarakteri və şəraitindəki dəyişiklikləri izləməyə imkan verir.

Kitabxana şəbəkələrinin yerləşməsinə təsir edən amillərdən biri də əhalinin sıxlığıdır. Təcrübə göstərir ki, region kitabxanalarının reytinqi onların texniki təchizatından, oxucuların informasiya tələbatlarının nə dərəcədə dolğun və diqqətli ödənilməsindən və s. amillərdən çox asılıdır.

Kitabxanaların 14,9%-i tədqiqat obyekti kimi seçilən Gəncə-Qazax, 11,7%-i Lənkəran, 8,2%-i Quba-Xaçmaz iqtisadi regionlarında yerləşmişdir. Bu da ümumilikdə respublika üzrə kitabxana infrastrukturunun 34%-ni təşkil edir. Ümumi yekuna görə, kənd kitabxanalarında olan fondun ölkə üzrə 34,6%-i ümumtəhsil məktəblərində, 32%-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kütləvi kitabxanalarda, 21,4%-i elmi və elmi-texniki kitabxanalarda, 12%-i isə digər müəssisə və təşkilatların kitabxanalarında yerləşir. Kitabxanalarda olan 1695 kompüterdən 94,2%-i şəhər, 8%-i isə kənd yaşayış yerlərində yerləşən kitabxanaların payına düşür.

Beləliklə, Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti və ondan səmərəli istifadənin nəzəri məsələləri və perspektivlərinin ümumi mənzərəsi sahə üzrə dövlət proqramına müvafiq olaraq hələ çox işlər görülməsini nəzərdə tutur.

**Fəslin "Regionların kitabxana infrastrukturunun yerləşməsinin vəziyyəti"** adlanan ikinci paraqrafında qeyd olunur ki, Azərbaycan Respublikasının 3 müxtəlif regionunda-Gəncə-Qazax iqtisadi rayonu, Quba-Xaçmaz iqtisadi rayonu və Lənkəran iqtisadi rayonu iqlim şəraitinə, ərazi quruluşuna, əhalinin demoqrafik vəziyyətinə, sosial-iqtisadi inkişafına və s. görə bir-birindən fərqlənir.

Azərbaycan Respublikasının Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran iqtisadi rayonlarında yerləşən kitabxana resurslarının növlərinə görə bölgüsü:

1. Mədəniyyət və Turizm Nazirliyi üzrə - 1487 kitabxana (ölkə üzrə 39%);



2. Ali təhsil müəssisələri - 7 kitabxana (ölkə üzrə 12,2%);
3. Elmi, elmi müəssisə - 6 kitabxana (ölkə üzrə 8,3 %);
4. Orta ixtisas təhsili müəssisəsi - 10 kitabxana (ölkə üzrə 16,6%);
5. İlk peşə-ixtisas təhsili müəssisəsi - 27 kitabxana (ölkə üzrə 25,2%);
6. Ümumtəhsil məktəblərində - 1359 kitabxana (ölkə üzrə 33,3%);
7. Musiqi məktəblərində - 31 kitabxana (ölkə üzrə 20,1%);
8.Səhiyyə müəssisələrində - 20 kitabxana (ölkə üzrə 28,9%);
9.Digər müəssisələrdə - 10 kitabxana (ölkə üzrə 10,5%)[1].

Gəncə-Qazax iqtisadi rayonunda cəmi 1265 kitabxana var. Kitabxanaların 271-i (21,4%) şəhər yerlərində, 994-ü (78,6%) kənd yerlərində fəaliyyət göstərir. Bu kitabxanalar, ölkə üzrə kitabxana resurslarının 14,9%-ni təşkil edir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 652 (51,5%) kitabxana var. Bu kitabxanalara iqtisadi regionun tərkibinə daxil olan inzibati rayonların Mərkəzləşdirilmiş Kitabxana Sistemləri, onların filialı olan kütləvi kitabxanalar və bu regionlarda fəaliyyət göstərən musiqi məktəblərinin 19 (1,5%) kitabxanaları daxil olduğundan bu kateqoriyalı kitabxana ehtiyatları iqtisadi region üzrə cəmi 671(53%) olur[2].

Quba-Xaçmaz iqtisadi rayonunda cəmi 698 kitabxana resursu var. Kitabxanaların 105-i (15%) şəhər yaşayış yerlərində, 593-ü (85%) kəndlərdə yerləşir. Ümumi yekuna görə, bu iqtisadi regionun kitabxanaları respublika kitabxana şəbəkələrinin 8,2%-ni təşkil edir. İqtisadi regionda fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemləri və onların filalları 356(51%) təşkil edir. Regionda yerləşən musiqi məktəblərinin kitabxanaları 8(1,1%) ilə birlikdə, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində cəmi 364(52,1%) kitabxana ehtiyatının olması məlum olur.

Lənkəran iqtisadi rayonunda 994 kitabxana var. Şəhər yaşayış yerlərində 135(13,6%), kənd yerlərində 859(86,4%) kitabxana fəaliyyət göstərir. İqtisadi regionun kitabxanaları ümumrespublika kitabxana şəbəkəsinin 11,7%-ni əhatə edir. Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan MKS-lər və onların filialları 479(48,2%) təşkil edir[3].

"Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın tələblərinə uy-

---

[1] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten / Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. B., 2009, s.25-29.
[2] Yenə orada, s.26-27
[3] Yenə orada, s.24-29

ğun olaraq, Lənkəran Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində struktur islahatları aparılması nəticəsində 20 kitabxana filialı birləşdirilib. Bəzi kənd kitabxanaları birləşdirildikdən sonra Mərkəzləşdirilmiş Kitabxana Sisteminin filiallarının sayı 72-yə enib.

Araşdırmalardan aydın oldu ki, Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarında cəmi 2957 kitabxana var. Bu iqtisadi rayonların kitabxana ehtiyatları birlikdə respublika kitabxana ehtiyatlarının 34,7%-ni əhatə edir. Ölkə üzrə kitabxana ehtiyatlarının üçdə birindən çoxu tədqiqat apardığımız bu üç iqtisadi region kitabxana ehtiyatlarının payına düşür

Beləliklə, tədqiqat nəticəsində müəyyən olundu ki, bəhs edilən regionlarda kitabxana resurslarının yerləşməsi ölkə göstəriciləri ilə müqayisədə aşağıdır. Bu uyğunsuzluqların aradan qaldırılması və kitabxana resurslarının tarazlı inkişafı müvafiq icra hakimiyyəti orqanlarının qarşısında duran əsas vəzifələrdən biridir.

**Dissertasiya işinin II fəsli "Regionlarin kitabxana-informasiya ehtiyatlari"** adlanır. II fəslin **"Gəncə-Qazax iqtisadi regionunda kitabxana-informasiya ehtiyatlarının yerləşməsi və quruluş təhlili"** adlanan birinci paraqrafında qeyd olunur ki, Azərbaycanın kitabxana-biblioqrafik ehtiyat sistemi zəngin ənənələrə, tarixə və mürəkkəb quruluşa malikdir. Bu sosial institutun sənəd kommunikasiyaları sistemində əsas vəzifəsi ilkin sənədlərdən istifadənin təşkili, fəallaşdırılması, optimallaşdırılması və nəticə etibarilə cəmiyyətin informasiya tələbatının ödənilməsinə təsir göstərməkdən ibarətdir. Bu sistemə kitabxanaların soraq-biblioqrafiya aparatı, fundamental biblioqrafik vəsaitlər, qeyri-müstəqil nəşr formalı mənbələr, ikinci dərəcəli informasiya daşıyıcıları, kadr potensialı, maddi texniki baza da daxildir[1].

Gəncə-Qazax iqtisadi regionun kitabxana-informasiya resurslarının həcmi 11773454 nüsxədir. Bu göstərici də respublika üzrə informasiya resurslarının 10,6%-i deməkdir. Araşdırmalardan aydın olur ki, Gəncə-Qazax iqtisadi rayonu üzrə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan, kütləvi kitabxanaların fondu, ümumi kitabxana-informasiya resurslarının 41,8%-ni əhatə edir. İqtisadi region üzrə kitabxana-informasiya resurslarının 58,2%-i isə Təhsil Nazirliyinin tabeliyindəki ümumtəhsil məktəb, elmi müəssisə, ali təhsil, orta-ixtisas təhsil, ilk

[1] İsmayılov N.İ.Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı:vəzifələri, problemləri, pers pektivləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. 1998, №2, s.85



peşə-ixtisas təhsil, səhiyyə və digər müəssisələrin kitabxanalarının fondunu əhatə edir.

Oxucuların ümumi sayı cəmi 372273 nəfər, filialların sayı 644, kitabxanalarda işləyənlərin sayı 1125 nəfər, ali ixtisas təhsillilərin sayı 89 nəfər, ali qeyri-ixtisas təhsillilərin sayı 129 nəfər, orta ixtisas təhsillilər 225 nəfər, orta qeyri-ixtisas təhsillilər 173 nəfər, ümumi orta təhsillilər 509 nəfərdir[1].

**II fəslin "Quba-Xaçmaz və Lənkəran iqtisadi rayonlarında kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti"** adlanan ikinci paraqrafında qeyd olunur ki, Quba-Xaçmaz iqtisadi rayonunda cəmi 698 kitabxana resursu var. Kitabxanaların 105-i (15%) şəhər yaşayış yerlərində, 593-ü (85%) kəndlərdə yerləşir. Bu iqtisadi regionun kitabxanaları respublika kitabxana şəbəkələrinin 8,2%-ni təşkil edir. İqtisadi regionda fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemləri və onların filialları 356 (51%) təşkil edir. Regionda yerləşən musiqi məktəblərinin kitabxanaları 8 (1,1%) ilə birlikdə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində cəmi 364 (52,1%) kitabxana ehtiyatının olması məlum olur.

Quba-Xaçmaz iqtisadi rayonunun kitabxana-informasiya resurslarının həcmi 4782603 nüsxədir. Bu göstərici, respublika üzrə informasiya resurslarının 4,31%-i deməkdir. Quba-Xaçmaz iqtisadi regionunda kitabxanaların fondunun 4716679 nüsxəsini (98,6%) kitablar, 28739 nüsxəsini (0,6%) jurnallar, 21821 nüsxəsini (0,5%) qəzetlər, 168 nüsxəsini elektron-informasiya daşıyıcıları, 15196 nüsxəsini (0,3%) digər informasiya materialları əhatə edir.

Lənkəran iqtisadi rayonunun kitabxanalarının informasiya resursları cəmi 6578166 nüsxədir. Lənkəran iqtisadi regionunun kitabxana-informasiya resursları, ölkə üzrə kitabxana fondunun 5,9%-ni əhatə edir.

Apardığımız araşdırmalardan aydın oldu ki, Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarında ümumilikdə 2957 kitabxana var. Onların 1487-i Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində yerləşir[2] .

Beləliklə, Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi rayonlarının kitabxana-informasiya resurslarının araşdırılmasından aydın oldu ki, bu iqtisadi rayonların informasiya resurslarının həcmi, cəmi

[1] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. B., 2009, s.23-75.

[2] Yenə orada, s.26-28.

23134223 nüsxədir. Bu isə respublika üzrə informasiya resurslarının 20,8%-ni təşkil edir. Region kitabxanalarında cəmi 21.977556 nüsxə kitab var. Bu göstərici, ümumrespublika üzrə kitab fondunun 24,6%-ni əhatə edir. Bu iqtisadi regionların kitabxanalarında yerləşən elektron-informasiya daşıyıcılarının ümumi həcmi 4198 nüsxədir ki, bu da respublika üzrə göstəricinin 5,5%-i deməkdir.

Dissertasiya işinin II fəslinin üçüncü paraqrafı "**Regional biblioqrafik informasiya ehtiyatlarının kitabxana fondlarından istifadə sistemində yeri**" adlanır. Paraqrafda qeyd olunur ki, elmin inkişafı, onun yeni problemlərinin yaranması kitabxana-biblioqrafiya xidmətinin təşkilinə, forma və məzmununa tələbatın artması zərurətini yaradır. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində kitabxana-biblioqrafik fəaliyyətin təşkili dedikdə, bütün kitabxana-biblioqrafik vasitələrdən istifadə etməklə, kitabxananın öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirilməsinə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur[1].

Aparılan araşdırmalara əsasən söyləmək olar ki, iqtisadi rayonların MKS-nin Biblioqrafiya şöbələri öz işini vahid plan əsasında aparır, hər il görəcəyi işi planlaşdırır və bu plan əsasında da fəaliyyət göstərir. Mərkəzləşdirimiş Kitabxana Sisteminin yaradılması kiçik kitabxanaların vahid sistemdə birləşdirilməsi yolu ilə onların ehtiyatlarını və qüvvələrini mərkəzləşdirməyə, vahid kitab fondu və SBA yaratmağa, oxuculara operativ informasiya xidməti göstərməyə imkan yaratdı. Tədqiqata cəlb olunan rayonların MKS-nin baş müəssisəsi hər rayonun özünün Mərkəzi kitabxanası hesab olunur. O, bütün kitabxanaların fəaliyyətinə rəhbərlik edir.

Öz əhəmiyyətinə görə mərkəzi və vacib problemlərdən biri hər bir kitabxanada SBA-nın təşkilidir. İqtisadi rayonların MKS-də SBA-nın tərkibinə aşağıdakılar daxildir: Soraq və biblioqrafik nəşrlər fondu; Kataloq və kartoteka sistemi. Tədqiqata cəlb olunan iqtisadi rayonların MKS-də Məkəzi Kitabxananın soraq və biblioqrafik nəşrlər fondu dörd tərkib hissədən ibarətdir. Bu fond metodiki-biblioqrafiya şöbəsində açıq rəf üsulu şəraitində yerləşdirilmişdir. Soraq nəşrlərinin vahid nüsxələri oxucular tərəfindən yalnız kitabxananın daxilində istifadə edilir və evə verilmir.

İqtisadi rayonların MKS-də SBA-nın ikinci əsas tərkib hissəsini kataloq və kartoteka sistemi təşkil edir. İqtisadi rayonların MKS-də kataloqların tərtibi də mərkəzləşdirilmişdir. Belə ki, sistemin bütün

[1] Библиографическая работа в библиотеке: организация и методика. Москва, 1990, с.4.



filiallarına kitablarla birlikdə kataloq tərtib etmək üçün onların kartoçkaları da hazır şəkildə göndərilir, hər bir kitabdan hansı filiala göndərildiyi mərkəzi kitabxananın əlifba kataloqunda qeyd olunur.

İqtisadi rayonların MKS-də SBA-nın tərkib hissələrindən biri də biblioqrafik kartotekalardır. İqtisadi rayonların MKS-də mərkəzi kitabxanalarda təşkil edilən kartotekalardan biri diyarşünaslıq kartotekasıdır. Bu kartotekada hər bir rayonun tarixi, iqtisadiyyatı, görkəmli şəxsləri, şəhərdə fəaliyyət göstərən idarə və müəssisələr və mədəni quruculuğu haqqında materiallar verilmişdir.

İqtisadi rayonların MKS-dən Gəncə, Xaçmaz, Quba və Lənkəran rayonlarında Regional Kitabxana Məlumat Mərkəzi fəaliyyət göstərir. Məlumat Mərkəzi kompüter avadanlıqları ilə təchiz edilmişdir. Bütün tip kitabxanalarda olduğu kimi tədqiqat aparılan iqtisadi rayonların MKS-lərində də biblioqrafik xidmət iki əsas istiqamətdə aparılır: Soraq-biblioqrafiya xidməti; Biblioqrafik informasiya xidməti[1].

Ümumiyyətlə, iqtisadi rayonların MKS-nin iş təcrübəsinin tədqiqi nəticəsində məlum olmuşdur ki, oxuculara kitabxana-biblioqrafik xidmət göstərilməsində kitabxananın soraq biblioqrafiya aparatından, məlumat bülletenlərindən, kitab sərgisi, mütəxəssis günü, sərgi-baxışlar və müxtəlif mədəni kütləvi tədbirlərdən geniş şəkildə istifadə olunur. Bu sahədə regional məlumat mərkəzlərinin fəaliyyəti xüsusilə böyük əhəmiyyət kəsb edir.

**II fəslin dördüncü paraqrafı "Regionların biblioqrafik informasiya təminatında sahə üzrə nəşr olunan biblioqrafik vəsaitlərin əhəmiyyəti"** adlanır. Qeyd olunduğu kimi, regionların biblioqrafik informasiya təminatı sisteminin əsasını Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sistemi – M.F.Axundov adına Milli Kitabxana və MKS-lər təşkil edir. M.F.Axundov adına Milli Kitabxana bir sıra metodlarla yanaşı biblioqrafik vəsaitlərin nəşri və tələbatçılara çatdırılması vasitəsilə də istifadəçilərin səmərəli biblioqrafik təminatını həyata keçirir. Aparılmış araşdırmalar göstərir ki, Milli Kitabxanada son on ildə 100-ə qədər yeni biblioqrafik göstərici nəşr olunmuşdur. Onların içərisində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı: biblioqrafik göstərici" adlı vəsaitin I və II buraxılışları mühüm yer tutur[2].

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident

[1] Библиографическая работа в библиотеке: организация и методика. Москва, 1990, с.136.

[2] Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: Biblioqrafik göstərici. I buraxılış. Bakı, 2008, 136 s.; Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: Biblioqrafik göstərici. II buraxılış. Bakı, 2009.-344 s.

kitabxanası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsinin üçilliyi ilə bağlı 2 elektron nəşr hazırlamışdır. ”Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər): Elektron biblioqrafik göstərici. Bakı, 2007, 413 s.” adlanır. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən hazırlanıb nəşr edilən bu elektron biblioqrafik göstəricidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin fevral ayının 11-də imzaladığı fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” yerinə yetirilməsi ilə əlaqədar dövri mətbuatda dərc edilmiş materiallar haqqında biblioqrafik informasiya toplanaraq www.preslib.az saytı vasitəsilə oxuculara təqdim edilir. Nəticə olaraq qeyd etmək lazımdır ki, bəhs edilən regionlarda informasiya ehtiyatlarının mühüm tərkib hissəsi kimi biblioqrafik nəşrlər müstəsna rol oynayır və bu sahədə müxtəlif aspektli biblioqrafik resurs formalaşmışdır.

Dissertasiya işinin III fəsli “**Regionların kitabxana-informasiya orqanlarının kadr təminatı” adlanır.** Fəslin “**Regionların kadr potensialının yerləşməsi və onun tərkibi” adlanan birinci paraqrafında** qeyd olunur ki, hər bir sahənin uğurlu inkişafı onun yüksək ixtisaslı kadrlarla təminatından bilavasitə asılıdır. Rəsmi statistik məlumatlara əsasən, müəyyən olundu ki, respublikada fəaliyyət göstərən 8727 nəfər kitabxana mütəxəssisindən 1579 nəfəri (18,1%) ali ixtisaslı kitabxanaçılardır. 1318 nəfər(15,1%) ali qeyri-ixtisas təhsilli, 1767 nəfər (20,2%) orta ixtisas təhsilli, 1261 nəfər (14,4%) orta qeyri-ixtisas təhsilli, 2802 nəfər (32,2%) ümumi orta təhsilli işçilərdir[1].

2009-cu ilin statistik məlumatına görə Gəncə-Qazax iqtisadi regionunda cəmi 1125 nəfər mütəxəssis çalışır ki, bu da ölkə üzrə kitabxana mütəxəssislərinin 12,8%-ni əhatə edir. Ali ixtisas təhsilli kitabxanaçı kadrlar Gəncə-Qazax iqtisadi rayonu üzrə cəmi 89 (7,9%) nəfər təşkil edir. Bu ölkə üzrə eyni kateqoriyalı kadr korpusunun 5,6%-nə bərabərdir. Region üzrə ali ixtisas təhsilli kadrların xüsusi çəkisi ölkə üzrə müvafiq göstəricilərdən yüksəkdir. Gəncə şəhər kitabxanalarında ali ixtisas təhsilli kitabxanaçılar 16(17,2%) nəfərdir. Naftalan şəhər kitabxanalarında 1 nəfər ali ixtisas təhsilli kitabxanaçı var.

[1] “Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.22.



Ali ixtisas təhsilli kitabxanaçı kadrlarla təminatda Qazax rayonu ikinci yerdə durur. Bu inzibati rayonda 15(15%) nəfər ali ixtisas təhsilli mütəxəssis var. Bu sırada üçüncü yeri Goranboy rayonu tutur ki, burada ali ixtisas təhsilli kadrlar cəmi 14 (11,2%) nəfərdir. Gəncə-Qazax iqtisadi rayonu üzrə ali ixtisas təhsilli kadrlarla təminatda sonrakı yerləri Ağstafa 10 (10,6%) nəfər və Tovuz 10 (8,8%) nəfər rayonları tutur. İqtisadi rayon üzrə ən yüksək göstəricilər də yuxarıda adlarını çəkdiyimiz inzibati rayonların və Gəncə şəhərinin payına düşür[1]. Ümumiyyətlə, araşdırmalar nəticəsində Gəncə-Qazax iqtisadi rayonunun kitabxana mütəxəssislərinin respublika kitabxana kadr korpusunun 12,9%-ni təşkil etməsi aydın oldu. Elmi-mədəni, sənaye mərkəzi olan Gəncə şəhər MKS-də iqtisadi region kitabxanalarının kitabxana-informasiya və koordinasiya mərkəzinin yaradılması yaxşı olardı.

Regional kitabxanaşünaslıq tədqiqatlarına cəlb edilən Quba-Xaçmaz iqtisadi rayonunun kitabxana kadrlarının sayı 569 nəfərdir. Bu göstərici, respublika kitabxanaçı kadr korpusunun 6,5%-i deməkdir.

Araşdırma apardığımız Lənkəran iqtisadi rayonunda cəmi 734 nəfər kitabxana mütəxəssisi var. Bu göstərici respublika kitabxanaçı kadr korpusunun 8,4%-nə bərabərdir. Elmi biliklərin istehsalı və mənimsənilməsi bilavasitə insan amili ilə bağlıdır və burada kadrların hazırlanması, onların kəmiyyət-keyfiyyət tərkibinin daim inkişaf etdirilib təkmilləşməsinə böyük ehtiyac vardır[2].

Dissertasiya işinin III fəslinin ikinci paraqrafı **“Regionların kitabxana-informasiya təminatının təkmilləşdirilməsi yolları**” adlanır. Kitabxana işi haqqında normativ-hüquqi sənədlər içərisində ən mühümü “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”ıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli “Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri” qərarı ilə şəhər (rayon) kitabxanalarının strukturları təkmilləşdirilmiş və kitab-

[1] “Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.78.

[2] Muradov Ş.M. İnsan potensialı: Əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, s.488.

xanalarda yeni şöbələr (Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, İnformasiya-Resurs) və ştatlar (multimedia mütəxəssisi, operator, kitabxanaçı-informasiya texnologiyaları üzrə mütəxəssis, sistem inzibatçısı, proqramçı) yaradılmışdır.

Kitabxanaçıların təhsili, o cümlədən bilik və bacarıqlarının inkişafına nazirlik tərəfindən xüsusi önəm verilmiş və 10 Azərbaycan mütəxəssisi üçün "Kitabxanaların fəaliyyətində İnternet-texnologiyalarının tətbiqi" proqramı üzrə distant təhsil kursu təşkil olunmuş və kitabxanaçılar sözügedən kurslarda iştirak etmişlər. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Milli Kitabxana İnformasiya Mərkəzi (AZLİBNET) yaradılmışdır. Artıq AZLİBNET-in Veb-saytı hazırlanmış, toplu kataloqun yaradılmasında bir sıra işlər görülmüşdür. "Dövlət Proqramı"na uyğun olaraq "Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar" adlı kitabçanın ingilis və rus dillərində tərcüməsi işi başa çatdırılmış və nəşr olunmuşdur. "Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə "Quba və qubalılar" kitabı nəşrə hazırlanmışdır. "Azərbaycan kitabxanaları" veb-portalının yaradılması, Hüquq-informasiya mərkəzlərinin veb-portallarının yaradılması və onların informasiya təminatının təşkili, Lerik və Yardımlı rayon Mərkəzi kitabxanalarında "Ətraf mühit", "Uzunömürlülər" məlumat bazalarının yaradılması və kitabxanaların veb-saytına əlavə edilməsi, Azərbaycanın regionları üzrə "Qədim Bakı və bakılılar", "Qədim Şuşa və şuşalılar", "Qədim Bərdə və bərdəlilər" məlumat bazalarının yaradılması və İnternet şəbəkəsində yerləşdirilməsi məsələləri demək olar ki, başa çatdırılmışdır.

Qarşıda duran vacib məsələlərdən biri ölkə kitabxana-informasiya şəbəkəsini planlı şəkildə informasiya resurslarının qarşılıqlı istifadəsi və qarşılıqlı təminatının bir sistemi kimi təşkil etməkdir. Azərbaycanın vahid kitabxana-informasiya şəbəkəsinin yaradılması məsələsi qarşıda duran ən mühüm məsələlərdəndir.

Müasir şəraitdə kitabxanaların müxtəlif idarələrin tabeliyində olması, bütün idarələrdə kitabxana müəssisələrinin yerləşdirilməsinə dair normativlərin olmaması, Azərbaycanda kitabxana şəbəkələrini inkişafdan saxlayan əsas faktorlar kimi respublikada bütünlükdə kitabxana-informasiya resurslarının inkişafını ləngidir.

Qarşıda duran vəzifələrdən biri də respublikanın hər bir inzibati ərazisində, regionunda kitabxanaların yerləşdirilməsinin (dövlət, idarə) kompleks planının hazırlanmasıdır. Gələcəkdə kitabxana-informasiya



resurslarının regionlarda yerləşdirilməsi ilə bağlı problemlərin köklü həlli Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan, işğal olunmuş torpaqlar geri qaytarıldıqdan sonra mümkün ola bilər. İstifadəçilərin sorğularına və tələbatlarına müvafiq olaraq respublikanın kitabxana fondlarının planlı surətdə təşkili əsas vəzifələrdən biridir.

Yekun olaraq qeyd etmək olar ki, istifadəçilərin informasiya təminatının daha keyfiyyətli ödənməsi üçün müxtəlif təyinatlı biblioqrafik vəsaitlərin nəşrində kitabxanaların fəaliyyətinin aktivləşməsi, MKS-lərin filial kitabxanalarının informasiya texnologiyaları ilə təmin olunması, onların hər birinin veb-saytlarının yaradılması, kitabxanaçı kadrlarının ixtisas səviyyələrinin artırılması qarşıda duran vəzifələrdəndir.

Dissertasiya işinin **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulur və tədqiqat aparılan iqtisadi regionlarında fəaliyyət göstərən kitabxanaların yaxın gələcəkdə biblioqrafik fəaliyyətinin yeniləşməsi və gələcək inkişafının strateji istiqamətləri müəyyənləşdirilir:

1. Azərbaycanda baş verən siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklər tədqiqat obyekti olan regionlardakı kitabxanaların qarşısında daha ciddi tələblər qoyur. Regionlarda informasiya istifadəçilərinin kitabxana-informasiya təminatının daha operativ təşkilini zəruriləşdirir.

2.Tədqiqat obyekti olan regionlarda kitabxana-informasiya infrastrukturunun yerləşməsi, istifadəsi səviyyəsi müasir tələblərə cavab vermir və ciddi problemlər mövcuddur. Hər bir regionda kitabxananiformasiya infrastrukturunun təşkili və idarə olunması səviyyəsinə uyğun differensial dövlət siyasətinin həyata keçirilməsi vacibdir.

3. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının MKS-ləri arasında bölgələr üzrə koordinasiya mərkəzinin yaradılması, regionlar üzrə aparılan işlərin koordinasiya edilməsi, qarşılıqlı əlaqələrin qurulması, KAA vasitəsilə xidmət işinin daha da canlandırılması qarşıda duran vacib məsələlərdəndir.

4. Kitabxana-informasiya xidmətinin səviyyəsi kökündən yeniləşməli, müxtəlif texniki vasitələrlə xidmət və eyni zamanda virtual xidmət sistemi tətbiq edilməlidir.

5. Yaxın gələcəkdə region kitabxanalarının elmi-tədqiqat işlərinin səviyyəsi yüksəldilməli və Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi ilə əlaqələndirilmiş qaydada həyata keçirilməsi bu fəaliyyətin səmərəliliyini daha da artırar.

6. Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə hər bölgənin

özünə məxsus ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla MKS-lərin fondlarının zənginləşdirilməsi vacibdir.

7. Azərbaycanın hər bir regionu üçün "İqtisadi regionların kitabxanaları" adlı ayri-ayrılıqda veb-portalının yaradılması qarşıda duran mühüm məsələlərdəndir.

8. Dövlət Proqramında nəzərdə tutulmuş Respublikanın cənub bölgəsi üzrə "Uzunömürlülər diyarı" adlı məlumat bazasının həm ənənəvi formasının, həm də elektron formasının yaradılması vacibdir.

9. Dövlət Proqramında nəzərdə tutulmuş "Azərbaycan kitabxanaları" veb-portalının və orada Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxana-informasiya infrastrukturu haqqında daha geniş informasiyanın yerləşdirilməsi vacib məsələlərdəndir.

10. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionları arasında "Ən yaxşı İnternet mərkəzi", "Ən maraqlı veb-sayt", "Ən yaxşı elektron kataloq" layihəsi çərçivəsində monitorinqlərin aparılması və hər il fərqlənən MKS-ə müvafiq həvəsləndirici mükafatların verilməsi qarşıda duran vacib məsələlərdəndir.

11. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarındakı kitabxanalar arasında "İlin ən yaxşı MKS-i", "İlin ən yaxşı kitabxanaçısı" layihəsi çərçivəsində monitorinqlərin aparılması və fərqlənən MKS-ə müvafiq həvəsləndirici mükafatın verilməsi vacibdir.

12. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarındakı kitabxanalar arasında ənənəvi və elektron biblioqrafik, metodiki-biblioqrafik vəsaitlərin, informasiya bülletenlərinin operativ nəşri, istifadəçilərə, idarə və müəssisələrə ən qısa zamanda çatdırılmasının təmin edilməsi və monitorinq əsasında ən çox ənənəvi və elektron biblioqrafik vəsait hazırlayan MKS-lərin müəyyənləşdirilməsi və onların həvəsləndirici mükafatlarla təmin edilməsi vacibdir.

13. Müvafiq regionlar üzrə kitabxana-informasiya və soraq-biblioqrafiya xidmətinin keyfiyyətinin yüksəldilməsi, virtual xidmət üsüllarının yaradılması, bu məqsədlə oxucu qruplarının daha dəqiq təsnifləşdirilməsi, tələbatlarının daha dəqiq öyrənilməsi.

14. Yeni informasiya-kommunikasiya texnologiyalarının kitabxana işçilərinə öyrədilməsi üçün mütəxəssislərin dəvət olunması, yerlərdə treyninqlərin təşkili, təlim-tədris mərkəzinin yaradılması, elektron kataloqun təşkili məsələlərinin sürətləndirilməsi.

15. Regionlarda kitabxana-biblioqrafik proseslərin avtomatlaşdırılması məsələsinə diqqət artırılmalı, fondların retromassiv hissəsinin də



elektron kataloqa daxil edilməsi üzərində iş sürətləndirilməlidir.

16. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının kitabxanaları yeni nəşrlərin cari biblioqrafiyası ilə yanaşı, retrospektiv biblioqrafik göstəricilərin hazırlanması və nəşrində aparıcı rol oynamalıdır.

17. Region kitabxanalarında elmi-köməkçi biblioqrafik vəsaitlərin tərtibi sahəsində mühüm işlər görülməlidir. Müstəqil Azərbaycan dövlətinin yaranması, tarixi və müasir vəziyyəti, cəmiyyətdə demokratikləşmə və iqtisadi islahatlar, Dağlıq Qarabağ problemi, Azərbaycanın ayrı-ayrı ərazilərinin tarixi, ekologiyası və ətraf mühiti və müxtəlif elm sahələri üzrə retrospektiv xarakterli elmi-köməkçi göstəricilərin tərtibi region kitabxanalarının biblioqrafiyalaşdırma fəaliyyətində xüsusi yer tutmalıdır. Belə vəsaitlərin həm ənənəvi forması, həm də elektron forması yaradılmalıdır.

18. Xüsusi biblioqrafiyanın mühüm sahəsi olan tövsiyə biblioqrafik vəsaitlərin yaranması və inkişafı istiqamətində iqtisadi region kitabxanalarının fəaliyyəti yeniləşməlidir.

19. Tədqiqat obyekti olan kitabxanalarda kitabxana işçilərinin tərkibində orta təhsilli kitabxanaçılar və texnuki işçilərin xüsusi çəkisinin yüksək olması ciddi narahatlıq doğurur.

Güman etmək olar ki, Dövlət Proqramının müvəffəqiyyətlə icra olunması tez bir zamanda Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarında kitabxana-informasiya və biblioqrafiya işi sahəsində bütün çatışmazlıqları aradan qaldıracaq və bu tədbirlərin görülməsi sayəsində iqtisadi regionlardakı Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində kitabxana-informasiya işi daha da sürətlənəcək, regionlar üzrə informasiya resurslarının yaradılması və ondan istifadə sahəsində yeni informasiya kommunikasiya texnologiyalarının kitabxana-biblioqrafiya proseslərinə tətbiqi işləri daha da sürətlənəcəkdir.

**Dissertasiyanın əsas məzmunu tədqiqatçının mövzu ilə bağlı çap olunmuş aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

**1.**Regionların kitabxana-informasiya təminatı: Kitabxanaçılıq-informasiya fakültəsi üçün Proqram. -B.: "Bakı Universiteti" Nəşriyyatı, 2012.-18 s.

**2.**Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində)// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nə-

zəri, metodik və təcrübi jurnal. 2009, №1(24), s.99-112 (X.İ.İsmayılov. N.İ.İsmayılovla birlikdə);

**3.**Azərbaycan Respublikasının regionlarında şəhər əhalisinin informasiya təminatının bəzi məsələləri// Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2010, s.341-350 (N.İ.İsmayılovla birlikdə);

**4.**Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti //Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxana, İnformasiya Texnologiyaları İnstitutu, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsi, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Müasir İnformasiya məkanı və kitabxanalar" Respublika Elmi Konfransının Tezis və Məruzələri. B., 2010, s.110-115.

**5.** Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Quba-Xaçmaz iqtisadi rayonunun nümunəsində)// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 2010, №1(26), s.122-141.

**6.**Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti (Lənkəran iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2010.-№2(27), s.163-174.

**7.**Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). 2010, №3, s.203-210.

**8.**Развитие и формирование системы библиотечно-информационных ресурсов в 20-80 гг, XX века в Азербайджане // Актуальные проблемы (гуманитарных естественных наук). 2010, март, №3,с.355-360 (с Н.И.Исмаиловом)

**9.** Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Dağlıq Şirvan iqtisadi rayonunun nümunəsində)// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 2011, №1(28). s. 62-77 (N.İ.İsmayılovla birlikdə)

**10.** Azərbaycan Respublikasının regionlarında kənd əhalisinin kitabxana-informasiya təminatının təşkili // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 2011, №1(28), s.114-129.

**11.**Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti// Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). 2011, №2,s.250-258.



**12.**Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri,metodik və təcrübi jurnal. 2011, №2(29), s.127-141.

**13.** Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsi və kadr təminatının müasir vəziyyəti// Bakı Universitetinin Xəbərləri:(Humanitar elmlər seriyası). 2012, №1, s.194-205.

**14.**Lənkəran iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti //Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti "Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 65 illiyinə həsr olunmuş "Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri" adlı gənc tədqiqatçıların Respublika Elmi Konfransının Tezisləri.-B, 2012, s.69-72.

**15.** Gəncə-Qazax iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri.metodik və təcrübi jurnal.-2012, №1(30), s.104-111.

**16.** Современное состояние размещения библиотечно-информационных ресурсов и кадровое обеспечение библиотек регионов Азербайджанской Республики на примере Гянджа-Казахского, Ленкоранского и Куба-Хачмасского экономических районов// Журнал Научных публикации Аспирантов и докторантов. 2012, март, №3, с.94-101.

**17.**Современное состояние размещения библиотечно-информационных ресурсов и кадровое обеспечение библиотек регионов Азербайджанской Республики на примере Гянджа-Казахского, Ленкоранского и Куба-Хачмасского экономических районов// Журнал Научная и техническая библиотека .-2012, октябрь, №10, с.29-34.

**18.** Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti (Aran iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri.metodik və təcrübi jurnal. 2012. №2(31), s.80-99.

**19.**Gəncə-Qazax iqtisadi rayonunun kitabxanalarının kadr təminatı // Azərbaycanda ali kitabxanaçılıq təhsilinə başlanılmasının 65, müstəqil Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 50 illiyinə həsr olunmuş "İnformasiya cəmiyyəti və kitabxana informasiya fəaliyyəti" mövzusunda Respublika Elmi-Konfransının Tezisləri. 20 dekabr, 2012. B., 2012, s.38-41.

**20.**Современное состояние размещения библиотечно-информационных ресурсов регионов Азербайджанской Республики: на примере Гянджа-Казахского, Ленкоранского и Куба-Хачмасского экономических районов //Современные проблемы гуманитарных и естественных наук. Материалы XIII международной научно-практической конференции. Москва, 2012 г., 21-22 декабря, Том II, с.100-109.

**21.** Lənkəran iqtisadi rayonunun informasiya təminatının müasir vəziyyəti //Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "H.Əliyev irsində kitab və kitabxana məsələləri" mövzusunda Respublika Elmi Konfransının tezisləri. 02 may 2013. Bakı: Təhsil NPM, 2013, s.14 -15.

**22.**Gəncə-Qazax iqtisadi rayonunun kitabxanalarının kadr təminatı// Kitabxanaşünaslıq və informasiya:Elmi-nəzəri və praktiki jurnal. 2013. №1(10),s.127-133.

**23.**Региональные аспекты размещения библиотечно-информационных ресурсов и кадровое обеспечение библиотек регионов Азербайджанской Республики // Гилея:Науковый вестник. Выпуск 90(№11). Киев, 2014, с.173-176.



**Ирада Зиядхан кызы Байрамова**

**Система обеспечения библиотечно-библиографической информации в регионах Азербайджанской Республики: современное состояние и перспективы (2000-2012 г.г.) (На основе материалов экономических регионов Гянджа-Казах, Куба-Хачмаз и Ленкоран)**

**Резюме**

Диссертация состоит из введения, трех глав, заключения, библиографического списка использованной литературы и из дополнений.

Во введении обосновывается актуальность темы диссертации, даны сведения степени изученности проблемы, о целях, задачах, объекте, предмете, теоретико-методических основах и методах исследования, о научной новизне, научно-теоретическом и практическом значении и апробации.

Первая глава называется «Современное состояние библиотечно-информационной инфраструктуры регионов». В первом параграфе первой главы, называемом «Теоретические и практические вопросы регионального размещения библиотек», изучаются теоретические вопросы и факторы, оказывающие влияние на формирование и расположение региональных библиотек. Во втором параграфе главы, называемом «Состояние расположения библиотечной инфраструктуры регионов» анализированы вопросы об уровне образования жителей, состояние расположения библиотек и информационных ресурсов, библиотечно-библиографическое и информационное обеспечение изучаемых экономических регионов Гянджа-Казах, Куба-Хачмаз и Ленкоран.

Вторая глава называется «Библиотечно-информационные ресурсы регионов». В первом параграфе главы, называемом «Расположение и структурный анализ библиотечно-информационных ресурсов экономического региона Гянджа-Казах», с конкретными фактами, ссылаясь на статистические источники, отмечается объем библиотечно-информационных ресурсов в экономическом регионе, объем ресурсов в городах и сельских населенных пунктах, их физический состав. Во втором параграфе главы, называемом «Современное состояние расположения библиотечно-информационных ресурсов экономических регионов Куба-Хачмаз и Ленкоран» вы-

явлена структура библиотечно-библиографических ресурсов, существующих в разных областях, входящи в состав региона и своеобразные особенности библиотечно-библиографических ресурсов каждого региона. В параграфе, называемом «Место региональных библиографических ресурсов в системе исполъзования библиогечных ресурсов» исследуется выгода региональных библиографических информационных ресурсов в библиотечно-библиографическом обслуживании. В параграфе главы, называемом «Значение изданных по областям библиографические пособий в библиографическо-информационном обеспечении регионов» анализированы изданные по областям библиографические пособия и на основе мониторинга библиографических пособий определено количество изданной литературы по каждой изучаемой области.

В третьей главе, называемой «Кадровая обеспечение в библиотечно-информационных органах регионов», в первом параграфе, называемом «Расположение кадрового потенциала регионов и его состав», по каждому региону исследуется уровень образования кадров, работающих в библиотеках. Во втором параграфе главы, называемом «Пути совершенствования библиотечно-информационного обеспечении регионов» анализирована проделанная работа в регионах и определены необходимые задачи согласно «Государственной Программы» по развитию библиотечно-информационной сферы в Азербайджане.

В заключительной части диссертации приведены значительные предложения и рекомендации по развитию библиотечно-информационной области регионов, привлеченные к исследованию.



**Irada Ziyadkhan Bayramova**

**The system of library-bibliographical maintenance in the regions of the Republic of Azerbaijan: modern condition and perspectives (2000-2012 yrs.) (On the base of materials of the economical regions - Ganja-Gazakh, Guba-Khachmaz and Lankaran)**

**Summary**

The dissertation consists of an introduction, three chapters, conclusion part, the list of used literature and amendments.

In introduction the topicality of the dissertation has been proved and given information about the level of the studied problem, about the targets, tasks, object and subject, theoretical-methodical basis of the research, about scientific newness, scientific-theoretical and practical importance and approbation.

The first chapter is entitled “Modern condition of the library-informational infrastructure of the regions”. On the first paragraph entitled “Theoretical and practical issues of the regional emplacement of the libraries”, the theoretical issues and factors affecting the establishment and emplacement of the regional libraries are studied. On the second paragraph of the chapter entitled “The condition of the emplacement of the library infrastructure of the regions”, the issues about the educational level of the population, emplacement conditions of the libraries and information resources, informational maintenance of the studied economical regions – Ganja-Gazakh, Guba-Khachmaz and Lankaran are analyzed.

The second chapter is entitled “Library-information resources of the regions”. On the first paragraph of the chapter, entitled “Emplacement and structural analysis of the library-information resources of the economical region of Ganja-Gazakh” with the concrete facts, referring to the statistical sources, the volume of the library-information resources in the economical region, the volume of the resources in the urban and rural populated localities, its physical content are highlighted. On the second paragraph entitled “The modern emplacement condition of the library-information resources of the economical regions – Guba-Khachmaz and Lankaran”, the structure of the library-bibliographical resources existing in different territories, which are the parts of the region and the peculiarities of the library-bibliographic resources of each region, are revealed. On the paragraph entitled “On the system of using

regional bibliographic information resources from the library collections", the usefulness of the regional bibliographic information resources in the library-reference services are researched. On the paragraph of the chapter entitled "The importance of the published territorial bibliographic handbooks in the bibliographic-informational maintenance of the regions", the published territorial bibliographic handbooks are analyzed and according to the monitoring of the bibliographical handbooks, the quantity of the published literature on each of the studied territory is defined.

On the first paragraph entitled "Emplacement of the personnel potential of the regions and its structure" of the third chapter entitled "Personnel maintenance in the library-information organizations of the regions", the educational level of the personnel working in the libraries is studied for each region. On the second paragraph of the chapter, entitled "The ways of improvement of the library-informational maintenance of the regions", the fulfilled tasks according to the "State Program" on the development of the Library and Information field in Azerbaijan are analyzed and the necessary steps are discussed.

On the conclusion part of the dissertation, the important suggestions and recommendations on improvement of the Library and Information field of the regions, covered in the research, are remarked.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ИРАДА ЗИЯДХАН КЫЗЫ БАЙРАМОВА**

# Система обеспечения библиотечно-библиографической информации в регионах Азербайджанской Республики: современное состояние и перспективы (2000-2012 г.г.)
## (На основе материалов экономических регионов Гянджа-Казах, Куба-Хачмаз и Ленкоран)

**по специальности: 3356.01 – Библиотековедение, библиографоведение и книговедение**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2015**

**Çapa imzalanıb: 10.02.2015.**
**Kağız formatı 60x84 1/16. Sayı 100.**

**«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.**